# Bakıda "Yapon bağı" açıldı

Oktyabrın 15-də Bakı şəhərinin Xətai rayonundakı Heydər Əliyev Parkının ərazisində yeni salınmış "Yapon bağı"nın açılış mərasimi keçirildi. Bağın tikintisinə 2015-ci ilin fevral ayında başlanılıb və iyul ayında başa çatıb. Mərasimdə giriş sözü ilə çıxış edən Xətai Rayon İcra Hakimiyyətinin başçısı Razim Məmmədov bildirdi ki, 2014-cü ilin iyun ayında Azərbaycanın şəhər və rayon icra hakimiyyətləri başçılarından ibarət nümayəndə heyəti Yaponiyaya işgüzar səfər edib.






Səfərin məqsədi Yaponiyanın yerli idarəetmə sistemi, şəhər planlaşdırılması, şəhər təsərrüfatının idarə edilməsi ilə yaxından tanış olmaq və ikitərəfli regionlararası əməkdaşlığı gücləndirmək olub. Səfər çərçivəsində keçirilən bir sıra tədbirlərlə yanaşı, Yaponiyanın Kitakyuşu şəhəri ilə Bakının Xətai rayonu arasında dostluq və tərəfdaşlıq mübadiləsi haqqında Niyyət Protokolu imzalanıb. Eyni zamanda, yapon bağları və parklarının salınması və dizaynı üzrə ixtisaslaşmış "Kosuqi Zohen" şirkətinin nümayəndələri ilə görüş keçirilib.

Yaponiya ilə ikitərəfli regionlararası əməkdaşlığın qurulması naminə "Kosuqi Zohen" şirkətinin rəhbəri Saki Kosuqinin başçılıq etdiyi nümayəndə heyəti isə 2014-cü ilin sentyabr və dekabr aylarında ölkəmizdə, eləcə də Xətai rayonunda səfərdə olub. Səfər çərçivəsində Xətai rayonundakı Heydər Əliyev Parkında "Yapon bağı"nın salınması qərara alınıb. Cəmi 5 aya inşa olunan parkın tikintisində Yaponiyadan gəlmiş 11 nəfər mütəxəssis çalışıb. İş prosesini yaxından izləmək üçün şirkətin prezidenti S.Kosuqi dəfələrlə Xətai rayonuna səfər edib.

Mərasimdə iştirak edən Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Tsuquo Takahaşi yapon bağlarının cazibəsini dünyada tanıdan "Kosuqi" bağ inşaatı şirkətinin fəaliyyətindən söz açdı. Səfir qeyd etdi ki, yeni salınmış bu bağ Bakı sakinlərinin yapon mədəniyyəti ilə tanış olması baxımından əhəmiyyətlidir. O, Azərbaycanda yapon bağlarının inşasının ölkələrimiz arasında dostluq əlaqələrinin daha da inkişafına töhfə verəcəyini bildirdi.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul əməkdaşı Tağı Tağıyev Bakı şəhərində istirahət parklarının yenidənqurulması istiqamətində mühüm işlərin görüldüyünü bildirdi. Xətai rayonunda "Yapon bağı"nın açılması əlamətdar hadisə olmaqla yanaşı, Azərbaycanla Yaponiya arasında dostluq əlaqələrinin inkişafına mühüm töhfədir.

"Kosuqi Zohen" şirkətinin rəhbəri S.Kosuqi də çıxışında Azərbaycanda belə bir parkın salınmasının iki ölkə arasındakı dostluq münasibətlərinin mühüm göstəricisi kimi dəyərləndirdi.

Parkda qədim yapon mədəniyyətini, folklorunu və milli ornamentlərini əks etdirən atributlar, "Tori qapısı" quraşdırılıb, İtaliyanın Pistoya şəhərindən xüsusi olaraq sakura, aser, pinus və digər yapon mənşəli ağac və gül kolları gətirilib. Eləcə də Azərbaycanın müxtəlif guşələrindən, xüsusən də Xızı dağlarından gətirilən təbii qaya və çay daşlarından "Şəlalə" kompleksi qurulub, oturacaqlar quraşdırılıb.

Mərasimin sonunda "Yapon bağı"na gəzinti təşkil edildi və xatirə olaraq ağac əkildi. Yaponiyalı qonaqlar, həmçinin ulu öndər Heydər Əliyevin adını daşıyan parkla yaxından tanış oldular.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***